# İncəsənət və mədəni inteqrasiya fiziki məhdudiyyətli şəxslərin həyatında əhəmiyyətli rol oynayır

**Fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inamla və effektiv şəkildə inteqrasiyasına töhfə vermək səylərinin bir hissəsi olan incəsənət cəmiyyətin bütün təbəqələrini daha geniş şəkildə əhatə etməlidir.**

İncəsənət və mədəni inteqrasiya əsasən özünüifadə, özünəinam, kreativlik, ünsiyyət bacarıqları, empatiya, psixi və fiziki rifahın yaxşılaşdırılması və digər mövzuları əhatə edir. İnteqrasiyanın əsas məqsədi əlilliyi olan şəxslərə hamımız üçün ortaq dil olan hərəkət və rəqs dili vasitəsilə ünsiyyət qurmağa kömək etməkdir. Bu dilin fiziki məhdudiyyətli şəxslərin cəmiyyətdə tam və səmərəli şəkildə iştirakına əngəl olan maneələrin aradan qaldırılması istiqamətində effektivliyi artıq sübut edilib.

İncəsənət və mədəni inteqrasiya insanlara hər yaşda bu prinsiplərdən eyni dərəcədə faydalanmağa imkan verməklə onlara özlərini cəmiyyətin fəal üzvləri kimi hiss etmələrinə və özgüvənlərini artırmağa kömək edir.

Fiziki məhdudiyyətli insanların cəmiyyətə tam inteqrasiyası, onların həyat keyfiyyətini artırmaq və cəmiyyətlə daha sıx əlaqə qurmaq baxımından çox önəmlidir. Bu inteqrasiyanın təmin edilməsində incəsənətin rolu əvəzsizdir. İncəsənət tədbirləri və sərgiləri, həssas qrupdan olan şəxslərin bacarıqlarının üzə çıxarılması və cəmiyyət tərəfindən tanınmaları üçün bir platforma yaradır. Bu, onların özünə inamını artırır və cəmiyyətə inteqrasiyalarını asanlaşdırır.

İnteqrasiyanın təşviqi üçün cəmiyyətin bütün üzvlərinin, o cümlədən dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının dəstəyinə ehtiyac var. İncəsənət və mədəni fəaliyyətlərə daha çox sərmayə qoyulması fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasını təmin edəcək.



**Elnar MUSAYEV.**